## NƏZƏRİ DİLÇİLİK

NADİR MƏMMƏDLİ*

# LİNQVOHÜQUQŞÜNASLIĞIN NƏZƏRİ ASPEKTLƏRİ

**XÜLASƏ**

Dilin hüquq aspektinin aktuallığından danışarkən müasir dilçiliyin inkişafında koqnitivizmin interpretasiyasının səciyyəvi xüsusiyyətlərini qeyd etməyi lazım bilirik: "koqnitiv inqilab" interpretativ yanaşmada ümumi tendensiyanın təzahürlərindən biridir. Bu, fəlsəfi anlayışları, xüsusilə də linqvistik (semantik) interpretasiyanın mexanizmlərini, hüquqi hermenevtikada ifadə olunan fikirləri üzə çıxarmaq cəhdidir. Sözün yaradıcı şəkildə işlədilməsinin subyektiv mümkünlüyü, sonsuz məna valentliyi əsassız və sərbəst ola bilməz; dil yaradıcılığı azadlığının sərt reqlamentasiyası və məhdudiyyətləri belə tənzimlənmənin qeyri-legitimliyinə şərait yaradar. Bu məsələ linqvonəzəri baxımdan birmənalı deyil. Birincisi, ədəbi dil formasını – üslublarda keçidin mümkünlüyünü nəzərə almaq lazımdır, ikincisi, dil norması kimi kodlaşma zamanı bu və ya digər variantın, uzusun istifadə dərəcəsi aydın olmalı, hüquq baxımından anlayış dərk edilməlidir.

Bədii ədəbiyyat ən müxtəlif aspektlərdə intensiyaların tipologiyası, yerləşdirilmə üsulları, həyata keçirilmə vasitələri kimi hüquqi-linqvistik mövzunun işlənib hazırlanması üçün çox zəngin material verir, hüquq çərçivəsində rəsmi-işgüzar sənədlərə keçid yollarını tənzimləyir.

Bəzən şəxsiyyətin hüququnun müdafiəsində ikimənalı işarələrdən, söz oyunundan istifadə olunur, lakin bunun etibarlı elmi-linqvistik və hüquqi əsası, mətnlərdə dilçilər tərəfindən sübuta yetirilən dəyərlərin statusu yoxdur. Onlar nə nəzəri semasiologiyanın, nə də leksikologiyanın obyektidirlər, xüsusi bilik sahələrində mənaları düzgün təyin edirlər, belə ki, adi təsəvvürlər və definisiyalar düzgün mənaların təhrif edilməsi kimi nəzərdən keçirilir. Burada totalitar hüququn üslubu özünü göstərir, məsələnin hüquqi tərəfinin ideoloji-siyasi cəhətdən asılılığı aydın şəkildə görünür – asılılıq manipulyasiyanı şərtləndirir, hüquqşünasın nitq davranışını müəyyənləşdirir.

**Açar sözlər:** *hüquqi aspekt, dil daşıyıcıları, dil ekspertizası, hüquqi normalar, hüquqşünas-qanunverici, orfoqrafik norma, hüquqi müdafiə*

Dilin hüquq aspekti dil və hüquq arasında qarşılıqlı əlaqə, hüquq elementlərini özündə qoruyan dil təzahürləridir, onların hər birində legitimliyin müəyyən izləri vardır. Hüquq dilinin qanuniləşdirilmiş təzahürləri, ilk növbədə, onun kodlaşdırılmış normalarıdır. Hüquq-mühafizə obyekti kimi dilin ontoloji anlayışları mövcuddur; linqvohüquq sahəsinə hüquq praktikasında tətbiq edilən təbii dil qanunları daxildir. Dilçilik nöqteyi-nəzərindən linqvohüququn predmeti dilin legitimləşdirilməsinə və insanlar arasında sivil münasibətlər yaradılmasına gətirib çıxaran proseslərdir; bütün bunlar dil daşıyıcıları arasında sosial münasibətləri, dilin özündən irəli gələn xüsusiyyətləri, qanunları və normaları müəyyən edir. Dil daşıyıcıları, əvvəla, hüququn subyektləri, ikincisi isə hüquqi dilin metalinqvistik aspektidirlər, ontoloji əsas da hüquq

* AMEA Nəsimi ad. Dilçilik İnstitutu, filologiya elmləri doktoru, professor, *nurlan1959@gmail.com*

dilidir. Yəni, bu aspektdə dilçilik qanunları, təbii dilin qanunauyğun interpretasiyası dil ekspertizası vasitəsi, praktik biliklərin və xüsusi hüquq səriştəliyi və nəzəri biliklərin linqvistik funksiyasıdır.

Bütün hüquq tədqiqatlarının əsasında iki fundamental problem görürük, birincisi hüquqlaşdırma pilləsində qanunlarla (kodlaşdırmalar, quruluşlar və s.) dil kodifikasiyasının (leksik-semantik, qrammatik – morfoloji, sintaktik normalar və s.), ikincisi birbaşa və şərti antinomiya səviyyəsində təbii və hüquqi leksikanın nisbətidir, məlumatlar hüquq dilinə kifayət qədər və spesifik şəkildə uyğunlaşdırılır.

Hüquqşünaslıq mövqeyindən bu problemlər, onların obyektiv əsası qradual parametrlərdə təsvir edilən fasiləsiz-təkamül xarakteri daşıyır. Təbii dilin hüquqi müstəviyə təkamülü linqvistik problemlərin yeni şəraitə transformasiyası kimi görünür: dil qanunlarının, normalarının bu fonda ictimai həyatın müxtəlif kommunikativ, o cümlədən hüquq sahəsində üzvi inkişafıdır. Linqvohüquqşünaslıq bütün qarşılıqlı dil-hüquq hadisələrində təbii və bilavasitə özünü göstərən faktiki dil qanunauyğunluğunu əks edir.

Dil - hüquq fenomenlərinə istinad nöqtəsi kimi baxılarkən hüquqi dil təbii dilə nisbətən əhəmiyyətli dərəcədə şərti və ondan getdikcə daha çox muxtariyyətə meyil edən bir sistem kimi qəbul edilir. Bu mənada dilçiliyin əsas məqsədi qanunlara və hüquqi təcrübəyə əsaslanaraq, insanların sosial qarşılıqlı əlaqələrində, cəmiyyətin həyatında bütün hüquqi təzahürləri nəzərdən keçirmək, ontoloji əsasla hüquq-dil müstəvisində hüquqşünaslıq predmeti kimi faktiki hüquqi normativliyə riayət etməkdir. Bu rasional-süni hüququn təbii başlanğıcıdır, kanonik hüquq, kortəbii (yazılmamış) mənəvi normaları qanuniləşdirdiyi kimi, dilə qarşılıqlı münasibətlərini də tənzimləyir. Dil-hüquq sahəsinin determinoloji təsviri kifayət qədər sadədir, struktur-semantik anlam, bir tərəfdən, onun təbii nitq fəaliyyətinin qanunauyğunluğunu, digər tərəfdən, rasional dil kodlaşmasını müəyyənləşdirir, bu da öz növbəsində hüquqi kodlaşmaya çevrilir. Kodifikatorun fəaliyyəti dilin qanunauyğunluğuna əsaslanır və mümkün variantlardan optimalı ilə əvəz olunur.

Dil hüquq məkanında qeyri-formal, normalarının sistemli və funksional təsirinin nəticələrinin dialektik vəhdətinin nəzərə alınmasını nəzərdə tutur, həmişə sinxron və ziddiyyətsizdir. Məsələn, orfoqrafik normalar mütləq şəkildə dilin qanunlarına uyğun, sistem-struktur təhlil kimi təsdiq olunur, əlbəttə, bu yazılı nitq ənənələrindən irəli gəlir, nəticədə, kodifikator-linqvistin qarşısında həmişə bir fakt dayanır: ənənəvi normaya istiqamətlənmək. Ümumiyyətlə, bu fakt üçün məlumatların determinantı linqvistik problemdir. Onun hüquqi aspekti o zaman yaranır ki, yazı seçiminə ehtiyac olsun. Məsələn, naşirlər müasir orfoqrafik normalara əməl etməli və müəllif yazılarına ciddi yanaşmalıdırlar. Aydındır ki, hər iki hüquqi həll dilçilik nöqteyi-nəzərindən kifayət qədər ciddidir; dilçi dilin çoxplanlı, qeyri-legitim, qeyri-funksional reqlamentasiyasını yaxşı təsəvvür edir, deməli, o, dilin maraqlarını nəzərə alaraq, daha çevik, yəni dilin harmonik, dinamik aspektinə diqqəti çəkir. Bu halda dilin yaradıcı istifadəçisinin və qarşılıqlı anlaşma maraqlarının keşiyində duran normaları qoruyur. Bu hal-

larda dilçiliyin sadə, hətta qeyri-peşəkar reqlamentasiyasına güzəşt etmək olmaz. Təbii ki, yalnız dilçilik yox, mövcud qanun və hüquqi təcrübə də yanaşmanın prinsipial zəruriliyini, obyektiv, dialektik qanunauyğunluğunu təsdiqləyir.

Hüquqşünaslar dil və nitqlə bağlı qanunvericilik, hüquq-mühafizə fəaliyyətini əsaslandırmağa meyillidirlər, hüquqşünas-qanunvericilərin əksəriyyətinin şüurunda dil insan fəaliyyətinin tənzimlənməsinə yönəlmiş fenomenidir. Məntiqə əsaslanan hüquq dilin yalnız ünsiyyət tərəfini görür, bu isə onun mahiyyətinin yalnız biridir, dil həssas sahə kimi dünyanın məntiqi-bilik kateqoriyaları ilə müəyyən edilir [Горбачева: 1997, s.7]. Linqvohüquq müstəvisində dillə əvvəlcə məhdud fəaliyyət diapazonuna malik qanunlar yaradılır, daha sonra diskret – fasiləsiz, yaradıcı – dinamik və mühafizəkar – statik dialektik antinomiyalardan danışmaq olur. Hüquqşünaslığın metodoloji xüsusiyyətlərində dil hüquqi sahənin və onunla bağlı ən optimal hadisələrin nəzərdən keçirilməsini müəyyən edir, mühüm linqvistik parametrlər aspektində onlar belə müəyyənləşdirilir: 1) təbii – süni, 2) dəqiq – şərti, 3) məntiqi – kortəbii, 4) statik – yaradıcı, 5) diskret – davamlı. Bu aspektlərdə hüquqi qanunçuluğa dil normalarının hansı həcmdə və şəkildə təsir etməsi özünü göstərə bilər və ya ola bilərsə [Алексеев: 1966, s.11], dilin diskret və hüquqi terminlərin sərt şəkildə definləşdirilmiş semantikası müzakirə olunur; hüquqi mətnlərdə istifadə olunan təbii dilin qanunları nitq-dil nisbətini, eləcə də dil və hüququn ümumi qanunauyğunluğunun təzahürünü təşkil edir.

Hüquqşünaslığın fundamental aspektləri səciyyələndirildiyindən sonra periferik tərəflərində belə dilin tətbiqini təsvir etmək mümkündür. Lakin ənənəvi "kəsişmələr" dil-hüquq fenomeninin özəyinə daxil deyil, onunla əlaqəli əşyalarla məhdudlaşır [Ивакина: 1997, s.308-310; həmçinin bax: Жельвис: 1997, s.88; Роман: 1998, s.23], buna görə də hüquq elminin bir hissəsi kimi linqvohüquqşünaslar bu hallarda mövcud qanunvericiliyə və ya məhkəmə təcrübəsinə əsaslanırlar [Лебедева: 1998, s.89]. Məsələn, vətəndaşların şərəf və ləyaqətinin qorunmasını və s.-ni hüquqşünaslar həyata keçirirlər, onların mətn-məlumatları əsasında leksik tərkibin miqyası artır, hüquqşünas-dilçilər üçün də belə şərhlər dilin zənginləşmə üsullarından biridir [Лебедева: 1998, s.365], hüquq və linqvistikanın nüvəsi ilə bağlı olan tətbiqi problemlər böyük elmi-nəzəri əsaslar əldə edir, elmi biliklərin müəyyən alt sisteminin üzvi hissəsinə çevrilirlər.

Dilçilik bütün sahələrdə, sosial elmlər kimi, funksional çeşidlidir, obyekti diliin müxtəlif sosial və peşəkar şəraitdə necə inkişaf etməsi və fəaliyyət göstərməsidir [Алексеев: 1997, s.33]. Dilçilər, konkret olaraq, hüquqşünasların peşəkar sferasında istifadəsinə dair tövsiyələr verdikdə belə, dilin qanunundan kənara çıxmırlar. Məsələn, hüquqşünasın peşəkar nitqində əsas məzmun, ritorika ənənəvidir: rəsmi-işgüzar üslub, bədii üslub, publisistik üslub; dil vahidlərinin fəaliyyəti: söz istehlakının dəqiqliyi (sözün mənası, çoxmənalılığı, sinonimliyi, antonimliyi və s.); sabit söz birləşmələrindən istifadə, morfoloji kateqoriyaların dəqiqliyi və s. Hüquq dilinin funksiyalarında predmetin hüquqşünaslığa doğru dəyişmələri müəyyən edilir: “Qanunve-

rici hüquqi və fiziki şəxslərin nəzərinə çatdıraraq, dil vasitəsilə hüququn insanların şüuruna məqsədyönlü şəkildə təsir edir, onları düzgün istiqamətə yönəltməyə sövq edir. Deməli, hüquq dilinin əsası vəzifə funksiyasıdır" [Горбачева: 1997, s.2]. Bu tezis hüquq dilinin spesifikliyi və onları təbii dildən ayıran nitqin prinsipial müzakirəsinin başlanğıcı ola bilərdi; bunun fonunda modallığın dil fenomeni "hüquqiləşir" və keyfiyyətcə fərqli (hüquqi) fenomenə çevrilir. Lakin bu tezis də ənənəvi ritorikaya doğru istiqamətlənir: "Vəzifə funksiyasının savadlı və səmərəli şəkildə yerinə yetirilməsi üçün hüquqşünas nitq mədəniyyəti vərdişlərinə malik olmalıdır" [Горбачева: 1997, s.3]. Doğrudur, hüquqi nitqin predmeti müstəqil fənn kimi ayrılmır, lakin dilçiliyin bütün sferalara dərin təsiri, həmçinin bu dilin modelləşdirilməsi nəzəri təsvirlərin və ya praktik tövsiyələrin başlanğıcıdır. Linqvohüquqşünaslıq, onun qanunauyğunluğu və normaları ekstensiv-kəmiyyət baxımından müəyyən dəyişikliklərə məruz qala bilər (məsələn, yeni terminlər meydana çıxır, leksikanın müəyyən sahələri və ya sintaktik konstruksiyalar funksional cəhətdən fəallaşır və ya zəifləyir və s.), lakin normaların, onların ilkin formaları, funksiyaları müvafiq hüquqi dil baxımından modelləşdirilir. Bəzən bu səbəbdən dilçilərin əsərlərinin əksəriyyəti hüquqşünaslığa biləvasitə aid olur [Булыгина: 1997, s.43]. Məsələn, bir çox tədqiqatlarda hüquqi mətnlər, onların tərtibi dilçilik baxımından adi material rolunda çıxış edir. Əgər onlar ümumi dil aspektləri və tövsiyələrlə məhdudlaşmırlarsa, məhz hüquqi istiqamətləri nəzərdə tutulur.

Hüquq dilinin transformasiyasının dərinliyi onun funksional linqvistik intizamının öyrənilməsi üçün avtonom tədqiqat predmeti kimi nəzərdən keçirilməsinə əsas verir. Məsələn, aşağıdakı hüquqi aspekt üçün simptomatik vəziyyətə diqqət edək: əgər hüquqi mətnlərin tərtib edilməsində nitq mədəniyyəti mütəxəssislərinin iştirakı nəzərdə tutulursa, hazır mətnlərin və onların ayrı-ayrı komponentlərinin, xüsusilə terminlərin təfsirinə ehtiyac qalmır [Долгопольский: 1963, s.36]. Bu intuitiv hisslə bağlıdır, hüquqi mətnlərin şərhi zamanı dilçi üçün adət edilmiş prezumpsiyalarda əhəmiyyətli fərq yaranır; hüquqi dilin spesifik təbəqəsinə –hüquqşünaslığa daha dərindən yaxınlaşır, çünki onlarda söz və mətnlərə istər-istəməz məhz hüquq prizmasından yanaşılır, spesifik təyinatları və məzmunları ümumdil qanunları ilə şərh edilir.

Buna baxmayaraq, hüquqi mətnlərdə məntiq kommunikasiyanın tələbatına xidmət etmək zərurətindən irəli gəlir, obyektivləşən qanunvericinin iradəsi təbii dilin qanunauyğunluğuna və normalarına uyğunlaşdırılır (və əksinə). Məntiqlərdə ziddiyyət hüquqi mətnlərdə dramatizm yaratmaya bilməz, çünki təbii dilin materialı birbaşa qanunlaşdırma üçün nəzərdə tutulmur və hüquqi sənədlərdə spesifiklik qaçılmaz şəkildə ifadə olunur. Beləliklə:

1. Təbii dilin strukturunun (məntiqinin) elementləri hüquqi mətnə, onun dəyərləri sisteminə daxil olmaqla, müvafiq halda "qanuniləşdirilir" və bu, o demək ola bilər ki, sərbəst və ya qeyri-ixtiyari (qanunvericinin iradəsinə görə) hüquqi elementlərə bərabər tutulur. Təsadüfi deyil ki, hüquqi terminlər, ifadələr və s. müntəzəm olaraq

təhlil və izah tələb edirlər. Ona görə də qanunvericilər feilin növ kateqoriyasının bəzisindən istifadə etməməlidirlər. Qanunu şərh edən hüquqşünasdan müəyyən linqvistik səviyyə tələb olunur (məsələn, *kitabın haradan alındığı*, yoxsa *kitabın alındığı yer*?). Bəs, səviyyə necə olmalıdır? Bu linqvohüquqşünaslığın əbədi problemidir [bax: Падучева: 1996, s.309-360].

2. Dildə iki əks istiqamətli tendensiya özünü göstərir: motivasiya və əks-motivasiya. Dil ekspressiv vəzifələr imkanına malikdir, hüquq dilində denotat dəyişikliyi adın təhkiminin nəzərə alınmasını tələb edir.

3. Dil antinomiyalarının statik - dinamik, sabit - dəyişkən, purist - yaradıcı və s. konkret hüquqi təzahürləri nəzərə alınmalıdır. Belə hallarla, təbii olaraq, şəxsiyyətin (dil daşıyıcısı, kollektivin) dil mühitinə münasibətini əks etdirən normativ hüquqlarının hüdudları yaranır.

4. Dil rəsmi (hüquqi cəhətdən rəsmiləşdirilmiş və ya belə tərtibata ehtiyacı olan) və qeyri-rəsmi hüquqi normaların təkamül xarakterini, yəni onların qanunuləşdirilməsini funksional şəkildə təsbit edir [Голев: 1998, s.58]. Lakin bu cür təsbit prinsipləri yalnız dil nümunələri və normaları nəzərə alınmaqla müəyyənləşdirilməlidir: insan və kommunikativ hüquqlar dəyişməzdir.

5. Hüquqşünaslar invektivlik çərçivəsinədə məhkəmə orqanlarında linqvistik tövsiyələrə əsaslanmalıdırlar. Problemin yazılı həllinə ümid etmək olmaz, ekspert və məhkəmə alqoritmlərinin işlənməsi vacibdir. Lingvohüquqşünasların vəzifələri presedentlər, hüquqi elementlər, anlayışlar və terminləri tənzimləyən qanunları şərh etməli, ictimai zərurət olduqda onları hüquqi cəhətdən aydınlaşdırmalıdırlar. Bu və ya digər məqsədlərə nail olmaq üçün linqvohüquqi dil mexanizminin manipulyasiyası məsələləri son dərəcə vacibdir. Bu sahə hüquqi və linqvohüquqi aspektlərin xüsusi nəzəri və elmi-praktik işləmələrini tələb edən alt sistemlər yaradır. Beləliklə, linqvistik ekspertiza üçün əsas olan dil normalarının (orfoqrafik, qrammatik, üslubi, punktuasiya və s.) qorunub saxlanılmasıdır. Daha vacibi isə dilin hüquqi müdafiəyə ehtiyacı yoxdur.

## ƏDƏBİYYAT

1.Алексеев С.С. Государство и право. М., 1966.

2.Алексеев С.С. Общая теория права: Курс в двух томах. Т.2. М., 1982.

3.Булыгина Т. В., Шмелев А.Д. Языковая концептуализация мира (на материале русской грамматики. М., 1997.

4.Голев Н.Д На стыке языка и права (несколько тезисов по юрислингвистике) // 5.Актуальные проблемы филологии: Тез. докл. / Под ред. В.А. Пищальниковой. Барнаул: Изд-во Алт. ун-та, 1998.

6.Горбачева Е.В. Лингвистические средства как интеллектуальный компонент информационных правовых систем // Правовая информатика. М., 1997.

7.Долгопольский А.В. Категория вида в русском языке и вероятностный характер связи означаемого с означающим // Проблемы структурной лингвистики. М., 1963;

8.Жельвис В. И. Инвектива в парадигме средств фатического общения // Жанры речи. Вып. 10. Саратов, 1997.

9.Ивакина Н. И. Профессиональная речь юриста. М., 1997.

10.Лебедева Н.Б. Об аспектах юрислингвистики // Актуальные проблемы филологии: Тезисы докл. Барнаул, 1998.

11.Падучева Е.В. Семантические исследования (Семантика времени и вида в русском языке; Семантика нарратива). М., 1996; Шатуновский И.Б. Семантика предложения и нереферентные слова. М., 1996.

12.Роман Л.В. Метаязыковая субстанциональность языка судопроизводства и речевые аспекты его реализации. Краснодар, 1998.

**Nadir MAMMADLI**

**THEORETICAL ASPECTS OF LINGUO-JURISPRUDENCE**

**SUMMARY**

We need to note the specific features of interpretation of cognitivism in the development of modern linguistics while speaking about the actuality of the legal aspect of language: “cognitive revolution” is one of the manifestations of general tendency in the interpretative approach. It is the attempt to reveal the philosophical notions, especially mechanisms of linguistic (semantic) interpretation, the thoughts expressed in the legal hermeneutics. The subjective possibility of usage of the word creatively, infinite meaning valence cannot be unreasonable and free; strict regulations and restrictions of freedom of language creation can create conditions to the illegitimacy of such adjustment. According to the linguo-theoretical approach, this issue isn’t unambiguous. The first, it is needed to consider the possibility of transition of the literary language form in styles, the second, rate of usage of this or other variant must be clear as the language norm during coding, the notion must be understood in terms of law.

Belles-lettres expresses very rich material for elaboration of the legal-linguistic content as the typology of intensity, ways of placement, means of implementation in most various aspects, regulates ways of transition to the official-business documents within the law.Sometimes ambiguous signs, word games are used in the defense of human right, but it doesn’t have reliable scientific-linguistic and legal base, the status of values proved by the linguists in texts. They are the object of neither the theoretical semasiology, nor the lexicology, they define the meanings truly in special knowledge fields, so that, ordinary imaginations and definitions are looked through as the distortion of true meanings. Here the style of totalitarian law reflects itself, the ideological-political dependence of legal side of the issue is clearly visible – the dependence causes to the manipulation, defines the speech behavior of lawyer.

**Key words:** *legal aspect, language carriers, language expertise, legal norms, lawyer-legislator, orthographic norm, legal defense*

**Надир МАМЕДЛИ**

**ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ЛИНГВОЮРИСПРУДЕНЦИИ**

**РЕЗЮМЕ**

Говоря об актуальности правового аспекта языка, необходимо отметить особенности интерпретации когнитивизма в развитии современной лингвистики: «когнитивная революция» является одним из проявлений общей тенденции интерпретативного подхода к языку. Это попытка раскрыть философские концепты, особенности механизмов лингвистической (семантической) интерпретации, идеи, выраженные в юридической герменевтике. Субъективная возможность творческого употребления слова, бесконечная значимость значения не могут быть необоснованными и свободными; строгие правила и ограничения свободы языкового творчества создадут условия для нелегитимности такого регулирования. С лингвистической точки зрения данный вопрос неоднозначен. Во-первых, необходимо учитывать возможность перехода в форме литературного языка – стилей литературного языка, во-вторых, при кодировании как языковой нормы степень употребления того или иного варианта, узуса должна быть четкой и понятной с юридической точки зрения.

Художественная литература дает очень богатый материал для разработки юридико-лингвистических вопросов в различных аспектах, таких как типология интенсивностей, способы размещения, средства реализации, регламентирует переход к официально-деловым документам в рамках законодательства.

Иногда для защиты прав индивида используются двусмысленные знаки и каламбуры, но это не имеет под собой надежной научно-лингвистической и правовой основы, а статус значения доказывается лингвистами в контекстах. Они не являются предметом ни теоретической семантики, ни лексикологии и правильно определяют значения в конкретных областях знаний, так как обычные представления и определения рассматриваются как искажения правильных значений. Здесь проявляется стиль тоталитарного права, отчетливо видна идейно-политическая зависимость от правовой стороны вопроса – зависимость обосновывает манипуляцию, определяет речевое поведение юриста.

**Ключевые слова***: юридический аспект, носители языка, языковая экспертиза, юридические нормы, юрист-законодатель, орфографическая норма, правовая защита*